# Qarabağın salnaməçisi - Mirzə Adıgözəl bəy

**O, ömrünün ilk çağlarından Qarabağın gərgin günlərinin şahidi olub. Mirzə Adıgözəl bəy hələ Şuşa şəhərində məktəbdə oxuyarkən Ağa Məhəmməd şah qoşunları ilə Qarabağa daxil olub, Şuşa qalasını mühasirəyə alıb. Amma o vaxt Ağa Məhəmməd şah məqsədinə çatmayıb. Şəhəri ələ keçirə bilməyən şah Gürcüstana üz tutub. Tarixi mənbələrdən məlumdur ki, Ağa Məhəmməd şahın qoşunları Tiflis şəhərini 1795-ci il sentyabrın 12-də işğal edib.**





Mirzə Adıgözəl bəy Azərbaycan tarixşünaslığına mühüm töhfəsi sayılan "Qarabağnamə" adlı əsərində həmin hadisələrdən də bəhs edib.

Müəllif öz əsərində dünyaya göz açdığı Qarabağın 1736-cı ildən 1828-ci ilədək siyasi tarixini qələmə alıb. Mirzə Adıgözəl bəyin "Qarabağnamə"si XVIII əsrin sonları, XIX əsrin əvvəlləri Azərbaycan tarixşünaslığının ən mühüm qaynaqlarından biri hesab edilir.

Əsərinin əlyazmasının son səhifələrində Mirzə Adıgözəl bəy öz tərcümeyi-halından çox qısa bəhs edib. O, Qarabağda dünyaya gəldiyini yazıb. Lakin təvəllüdünü qeyd etməyib. Araşdırıcıları Mirzə Adıgözəl bəyin dünyaya gəldiyi ili onun tərcümeyi-halında işarə etdiyi faktlara əsasən təxmin ediblər. Bu şəxsiyyətin XVIII əsrin səksəninci illərinin əvvəllərində anadan olduğu qənaətinə gəliblər.

Mirzə Adıgözəl bəyin də yazdıqlarından görünür ki, onun doğma şəhərinin başının üstündən qara buludlar çəkilməyib. Bir çoxu kimi bu insanın atasının da yurdunu tərk etməkdən başqa çarəsi olmayıb. O, ailəsi ilə Gürcüstana qaçmaq məcburiyyətində qalıb. Araşdırıcı V.N.Leviatov "Qarabağnamə" kitabına müqəddiməsində yazıb: "Adıgözəl bəygilin ailəsi də, İran qoşunlarının vəhşi hərəkətlərindən canlarını qurtarmaq məqsədilə doğma yurdlarını tərk edərək Şirvan, Şəki oblastlarına və Gürcüstana qaçmış Qarabağ əhalisinin əksəriyyəti kimi, böyük əziyyətlər çəkmişdilər. Ağa Məhəmməd şahın basqınından qaçan qaçqınlar yollarda ağır əziyyətə rast gəlirdilər. Qarabağdan qaçarkən Adıgözəl bəygilin ailəsinin çəkdiyi bütün əziyyətlər başqa qaçqınların da başına gəldi".

Araşdırıcı qeyd edir ki, 1796-cı ilin yayında Adıgözəl bəy artıq Gürcüstanda idi: "1796-cı il yaz fəslinin əvvəllərində Ağa Məhəmməd şah öz qoşunları ilə Astarabad və Xorasana getdi". Lakin Mirzə Adıgözəl bəygil Gürcüstandan geri qayıda bilməyib. Çünki Qarabağdan dəhşətli xəbərlər alıblar. 1797-ci ilin yazında Ağa Məhəmməd şah qoşunları ilə yenidən Qarabağa hücum edib. 1795-ci ildə İran qoşunları Şuşaya ağır zərbə vurmuşdular. Aclıq və taun xəstəliyi əhalini əldən salmışdı. Şəhəri ikinci dəfə müdafiə etmək üçün hərbi qüvvəsi və vəsaiti yetərsiz olan Qarabağ xanı İbrahim xan Şuşa qalasını tərk edib. Ağa Məhəmməd şah qoşunları ilə heç bir maneəyə rast gəlmədən Şuşaya soxulub.

Gürcüstan Rusiya ilə birləşdikdən sonra nazir Kovalenski XII Georginin diplomatik məktublarını yazan katiblərinə inanmadığı üçün, osmanlı dilini bilən bir adam axtarıb. Kovalenskiyə Mirzə Adıgözəl bəyi nişan veriblər. Nazir onu gizli məktublarla əlaqədar işlər üçün xidmətə qəbul edib. Bu barədə Mirzə Adıgözəl bəy özü tərcümeyi-halında yazıb. Araşdırıcı Leviatovun qənaətincə, Mirzə Adıgözəl bəy bu məxfi vəzifədə 1799-cu ilin axırlarında və bütün 1800-cü il boyu xidmət etməliydi. Mirzə Adıgözəl bəyin həyatında bu dövrün böyük əhəmiyyəti olduğunu qeyd edən araşdırıcı bildirib ki, əgər indiyə qədər Adıgözəl bəy öz vətənində baş vermiş tarixi hadisələri müşahidə etmək və onlara qiymət verməklə öz siyasi təmayülünü müəyyən etmişdisə, nazir Kovalenskinin yanına xidmətə girdikdən sonra isə o, öz siyasi təmayulünü tamamladı və möhkəmləndirdi.

Mirzə Adıgözəl bəyin Kovalenskinin yanında, onun Gürcüstan idarə işlərini knyaz Sisianova təhvil verənə, yəni 1803-cü ilin fevralınadək xidmət etdiyi ehtimal olunur. Gürcüstan canişini və Qafqaz qoşunları komandanı knyaz Sisianovun yanında Mirzə Adıgözəl bəyin xidmət etməsi barədə məlumat yoxdur. Ömrünün bu illərindən Mirzə Adıgözəl bəy özü tərcümeyi-halında belə bəhs edib: "Mən rus komandanlığının rütbəli şəxsləri yanında xidmətdə idim". O, general-mayor Lisaneviçin yanına xidmətə təyin olunub. Həmin vəzifədə xeyli müddət qalıb: Mirzə Adıgözəl bəy tərcümeyi-halında bu barədə yazıb: "On birinci ilə qədər onun yanında katiblik etdim. Bu ildə mənə podporuçik rütbəsi verildi. Nəhayət, on altıncı ildə sərdar Yermolovdan izn alıb, Qarabağın keçmiş hakimi general-mayor Mehdiqulu xanın qulluğuna gəldim".

1816-cı ilin oktyabrında Gürcüstanın əlahiddə korpus komandiri vəzifəsinə təyin edilərək Tiflisə gələn general A.P.Yermolov Mirzə Adıgözəl bəyi qarabağlı olduğu üçün Mehdiqulu xanın yanına göndərib. Mirzə Adıgözəl bəy tərcümeyi-halında yazıb ki, qarabağlı Mehdiqulu xan ona ailəsinin əvvəllərdə sahib olduğu torpaqları qaytarıb, yeni malikanələr bağışlayıb və onu "İyirmi dörd" mahalına naib təyin edib. Araşdırmalarda "İyirmi dörd" mahalının Qarabağ xanlığının mahallarından biri olduğu bildirilib. Mirzə Adıgözəl bəy Mehdiqulu xanın ən yaxın və inanılmış adamlarından sayılıb. Mehdiqulu xan xaricə qaçdığı günədək onun yanında olub.

Mirzə Adıgözəl bəy general Yermolovun tapşırığı ilə üç il, 1823-cü ildən 1826-cı ilədək Qarabağ sərhədlərinin mühafizəsi üzrə qulluqda olduğunu yazıb. Sərhədi mühafizə etməklə İran hökumətinin müharibəyə başlayacağı barədə məlumatlar alan və həmin məlumatları Şuşa qalasının komendantı mayor Çilyayeva çatdıran Mirzə Adıgözəl bəyə öz postunda - Qarabağ sərhəd postları xəttinin son sağ qolunda, Murov dağının cənub ətəklərində, Bazargan bulağı yanında istehkamlar qurmaq əmri verilib. O, burada ikən, 1826-cı ildə müharibə başlayıb. Mirzə Adıgözəl bəyin və ona tapşırılan dəstənin Şuşa və Tiflislə əlaqəsi kəsilib. O, tərcümeyi-halında cürbəcür yollarla Şuşa ilə əlaqəni bərpa etməyə və hər bir addımda ölüm təhlükəsi olan düşmən arxasından çıxmağa cəhd göstərdiyini yazıb. Tiflisə tərəf geri çəkilən rus qoşunları ilə birləşmək mümkün olmayıb. İran qoşunlarının mühasirəsində olduğu üçün Şuşa qalasına da gedə bilməyib. Çətin vəziyyətdən çıxmaq üçün yol tapmayan Mirzə Adıgözəl bəy təhlükə ilə üzləşməyə məcbur olub. O, tərcümeyi-halında İran vəliəhdi Abbas Mirzənin qərargahına getdikdən sonra əsirlikdə başına gələnlərdən ətraflı bəhs edib. Mirzə Adıgözəl bəy əsir kimi Təbrizə aparılıb.

Abbas Mirzənin döyüşlərdə zərbə alaraq zəifləmiş qoşunlarını yenidən nizamlamaq üçün vaxt qazanmaq istəyi, sülh danışıqlarına başlamaq cəhdi onun əsirliyinin sonunu gətirib. O, Şuşaya bu məqsədlə göndərilib. Araşdırıcılar bu hadisənin 1827-ci ilin əvvəllərində olduğunu ehtimal edirlər.

Şuşadan da Tiflisə gedən Mirzə Adıgözəl bəy general A.P.Yermolov və qərargah rəisi general-adyutant İ.İ.Dibiç ilə görüşüb.

Mirzə Adıgözəl bəy tərcümeyi-halında knyaz Abxazovun rəhbərliyi altında xidmət etdiyini yazıb ki, araşdırıcıları bunun 1929-cu ildə ola biləciyini qeyd ediblər. Onun 30 ilə yaxın xidmət etdikdən sonra, 1829-cu ilin axırlarında və ya 1830-cu ilin əvvəllərində istefaya çıxdığı güman edilir. Mirzə Adıgözəl bəyin 1830-1840-cı illərindəki həyat və fəaliyyəti haqqında dəqiq məlumat qalmayıb. Yalnız 1834-cü ilin əvvəllərinə aid tapılmış arxiv sənədləri onun məhkəmədə şahid sifətilə çıxış etdiyini təsdiqləyib.

Azərbaycan dilindən savayı fars, rus, gürcü və erməni dillərini bilən Mirzə Adıgözəl bəy Şərq poeziyasını çox sevib. O, şeiriyyatının vurğunu olduğu Nizami Gəncəvinin 1826-cı ildə Gəncə döyüşü zamanı dağıdılmış sərdabəsini öz vəsaiti hesabına bərpa etdirib.

Mirzə Adıgözəl bəy 1848-ci il sentyabrın 9-da dünyadan köçüb. Mülkü olan Rəhimlidə (Goranboy rayonun Rəhimli kəndi) dəfn olunub.

O, şeirlər də yazıb. Ancaq Mirzə Adıgözəl bəy daha çox "Qarabağnamə"nin müəllifi kimi anılır. Araşdırıcıların fikrincə, təxmin edildiyi kimi, altmış beş yaşında görmə qabiliyyəti zəifləmiş müəllif "Qarabağnamə"ni 1845-ci ildə diktə edərək yazdırıb.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 2 sentyabr (№169).- S.11.